"Balakən Azərbaycanın çox gözəl guşəsidir" İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 06 (13) ✦ 30 iyun 2025-ci il

# Balakəndə Milli Qurtuluş Günü silsilə tədbirlərlə qeyd olunub





15 İyun - Milli Qurtuluş Günü Balakəndə təntənəli şəkildə qeyd edilib. Əvvəlcə Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları, idarə, müəssisə və təşkilatların kollektivləri, şəhid ailələri, qazilər və rayon ictimaiyyətinin nümayəndələri Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər güllər qoyaraq əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Daha sonra Yeni Azərbaycan Partiyası rayon təşkilatının inzibati binasında 15 iyun - Milli Qurtuluş Gününə həsr olunan "Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda konfrans keçirilib. Konfransın əvvəlində Dövlət Himni səsləndirilib, şəhidlərimizin və Ulu Öndərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Konfransı giriş nitqi ilə açan Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev 1993-cü ilin iyun hadisələrinin Azərbaycan tarixində dönüş nöqtəsi olduğunu vurğulayaraq, Ulu Öndər Heydər Əliyevin ölkəni siyasi böhrandan xilas etdiyini və sabitlik, inkişaf yoluna çıxardığını bildirib. O qeyd edib ki, müasir müstəqil Azərbaycanın təməlləri məhz həmin dövrdə qoyulub, bu gün qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır.

Daha sonra çıxış edən Balakən şəhər Nizami adına 1 nömrəli tam orta məktəbin direktoru Şəfiqə Tütünçüyeva, rayon ağsaqqalı Rəşid Musayev Ümummilli Liderin xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışının dövlətçilik tariximizin şanlı səhifəsini təşkil etdiyini qeyd edərək qədirbilən xalqımız tərəfindən böyük xilaskarın xidmətlərinin heç zaman unudulmayacağını bildiriblər.

Ardınca Nizami adına şəhər 1 saylı tam orta məktəbin şagirdlərinin ifasında Milli Qurtuluş Gününə həsr olunan kompozisiya nümayiş etdirilib.

Tədbirin sonunda müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsinin qalibi Çerçiyeva Səadət Rövşən qızına Balakən Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı, Yeni Azərbaycan Partiyası veteranlarına mükafatlar və partiya sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri təqdim olunub.

Balakən Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Milli Qurtuluş Günü ilə əlaqədar rayonun Heydər Əliyev adına mədəniyyət və istirahət parkında möhtəşəm konsert proqramı təşkil olunub. Konsert proqramında rayonun tanınmış incəsənət ustaları bir-birindən maraqlı ifaları ilə çıxış ediblər. Təşkil olunan möhtəşəm bayram konserti böyük coşqu ilə qarşılanıb.

Konsertin sonunda rayon sakinləri gündən-günə inkişaf edən, gözəlləşən Balakən şəhərinin səmasını al-əlvan rənglərə boyayan bayram atəşfəşanlığını maraqla seyr ediblər.

**Yeni Balakən**

# 5 İyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü

5 iyun - bu tarix ölkə melioratorları üçün olduqca əlamətdar bir gündür. Hər il həmin gün onlar böyük fərəh və sevinc hissi ilə öz peşə bayramlarını qeyd edirlər.

Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları meliorasiya və su təsərrüfatının respublikamızın iqtisadiyyatında, regionların sosial-iqtisadi inkişafında, ölkə əhalisinin ekoloji cəhətdən təmiz və dayanıqlı ərzaq məhsulları ilə etibarlı təminatındakı rolunu nəzərə alaraq, Müstəqil Dövlətlər Birliyi ölkələri arasında ilk dəfə olaraq müstəqil Azərbaycanda 1996-cı ildə Ulu Öndərimiz Heydər Əliyev tərəfindən "Meliorasiya və İrriqasiya haqqında" Qanunun imzalandığı 5 iyun tarixi münasibəti ilə "Meliorator günü" peşə bayramının təsis edilməsi barədə 24 may 2007-ci il tarixli Sərəncam imzalamışdır. Ölkə başçısı su təsərrüfatı və meliorasiya işçilərinin şərəfli əməyinə yüksək hörmət əlaməti olaraq onun miqyasını daha da genişləndirərək 5 iyun gününün "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı kimi qeyd olunması barədə 14 may 2014-cü il tarixli yeni Sərəncam imzalamışdır.

5 İyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü münasibətilə Balakəndə tədbir keçirildi. İlk öncə ulu öndər Heydər Əliyevin dağüstü parkdakı abidəsi və Şəhidlər Xiyabanı çiçəklərlə ziyarət edilərək, şəhidlərimizin və ulu Öndərin ruhundan Fatihə oxundu. Tədbiri rayon rəhbəri İslam Rzayev açaraq Balakəndə çalışan Su təsərrüfatı və Meliorasiya işçilərini 5 İyun peşə bayramları günü münasibətilə təbrik edərək, onların işlərindən razılığını bildirdi. Onlara işlərində uğurlar diləyərək bir qrup işində fərqlənən, aşağıda adları çəkilən işçiləri Balakən Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı ilə təltif etdi.

1. Nastakalov Eldar İbrahim oğlu - Ekskvatorçu
2. İbrahimov Eşqin Oruc oğlu - Traktorçu
3. Qardaşova Rəfiqə Zahid qızı - Nizamlayıcı
4. Əlisgəndərov Yaşar İsfəndiyar oğlu - Nizamlayıcı
5. Gondolov Fərrux Məhəmməd oğlu - Usta
6. Xalayev Elxan Nəsrəddin oğlu - Təmirçi çilingər

İslam müəllim Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxs tərəfindən təltif edilən iki işçinin - Cabbarov Əliyar Natiq oğlunun və Muquşov Rəsul Nəcməddin oğlunun "Fəxri Fərman"larını da təqdim etdi.



Balakən Su Meliorasiya Sistemləri İstismarı İdarəsinin rəisi Eldəniz Xudeynatov rayon rəhbərinə və digər qonaqlara bu peşə bayramı günündə onlarla birlikdə olduqlarına görə təşəkkür edərək indidən sonra daha da yaxşı çalışacaqlarını, Balakənlilərin xidmətində olacaqlarını bildirdi.

Sonda bu gündən xatirə olaraq foto şəkil çəkdirildi.

**Yeni Balakən**



# Balakən Rayon Ağsaqqallar Şurasının hesabat konfransı keçirilib

İyunun 12-də Balakən Rayon Ağsaqqallar Şurasının hesabat konfransı keçirilib.

Yeni Azərbaycan Partiyasının rayon təşkilatının inzibati binasında keçirilən konfransda Ulu Öndər Heydər Əliyev və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev konfransı açaraq, ölkənin, eləcə də rayonun ictimai-siyasi həyatında ağsaqqalların rolu və nüfuzundan danışıb. Xalqımızın milli-mənəvi dəyərlərinin formalaşmasında ağsaqqal tövsiyəsinin və məsləhətinin əhəmiyyətini vurğulayan icra başçısı bildirib ki, xalqımızın mənəvi dünyasında, milli mentalitetində ağsaqqal, ağbirçək sözü, xeyir-duası həmişə ən ali həyat məramı olub. Konfransda Balakən Rayon Ağsaqqallar Şurasının sədri Xəlifə Mirəliyev hesabat məruzəsi dinlənilib.

Respublika Ağsaqqallar Şurasının sədr müavini, professor Vahid Novruzov çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın inkişafı və qüdrətlənməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərdən, bu işdə ağsaqqalların böyük rolundan, ölkəmizdə yaşlı nəslin nümayəndələrinə göstərilən yüksək dövlət qayğısından danışıb. Qurumun rəsmisi tədbirin əhəmiyyətinə toxunaraq, ölkəmizdə ağsaqqal institutuna verilən yüksək dəyərin cəmiyyətin mənəvi inkişafında mühüm rol oynadığını qeyd edib.

Sonda konfrans iştirakçıları xatirə şəkli çəkdiriblər.

**Yeni Balakən**

# 17 İyun tibb işçilərinin peşə bayramı günüdür

17 İyun səhiyyə işçilərinin peşə bayramı günü kimi ölkəmizin hər yerində qeyd edilir. Bu gün münasibətilə Balakən səhiyyə kollektivi tədbir keçirərək öz peşə bayramlarını qeyd etdilər. Belə ki, ulu Öndərin dağüstü parkda yerləşən abidəsini çiçəklərlə ziyarət edərək xatirəsini andılar.Sonra Şəhidlər Xiyabanına gələrək vətənimizin azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsinə ucaldılmış abidə önünə çiçək dəstələri qoyaraq, məzarlarını ziyarət etdilər. Şəhidlərimizin ruhundan fatihə oxudular. Daha sonra Balakən RMX-ın böyük akt zalında toplaşaraq tədbirin rəsmi hissəsinə dövlət himnini səsləndirərək başladılar, şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla andılar. Səhiyyə işçilərini təbrik etmək üçün Balakən RİH-in başçısı İslam Rzayev, Balakən Polis Şöbəsinin rəisi Çingiz Aslanov da tədbirdə iştirak edirdilər. Rayon rəhbəri İslam Rzayev səhiyyə işçilərini təbrik edərək bir qrup tibb işçilərini Balakən Rayon İcra Hakimiyyətinin "Fəxri Fərmanı" ilə təltif etdi. Polis rəisi Çingiz Aslanov səhiyyə koillektivini təbrik edərək, bu çətin, məsuliyyətli işdə onlara uğurlar dilədi. Natiqlərdən İlahə Orucova çıxış edərək səhiyyə gününün yaranmasından, ölkə və rayon səhiyyəsinin inkişafından, Balakən səhiyyəsinin gördüyü işlərdən danışdı. Tanınmış, görkəmli həkim olmuş Əsgər Axundovun nəvəsi cərrah-həkim, elə babasının adını daşıyan, yolunu davam etdirən Əsgər doktor babası haqda danışaraq, onun o çətin dövrlərdə Balakən səhiyyəsindəki xidmətlərindən bəhs etdi. İştirakçılar Əsgər Axundov haqda qısa filmə baxdılar, bu gün artıq işləməyən, səhiyyədən təqaüdə çıxmış tanınmış həkimlərimizin video təbriklərini izlədilər. Balakən MRX Publik Hüquqi şəxs Dilbər xanım Quliyeva Balakən səhiyyəsində əməyi keçən bir neçə qocaman həkimlərimizi qiymətli hədiyyələrlə təbrik etdi. Həmən həkimlərdən daha əvvəl Balakən MRX-ın baş həkimi işləmiş doktor



Nuriyev çıxış edərək tibb işçilərini təbrik etdi, bu gün Balakən səhiyyəsinin ölkədəki digər səhiyyə təşkilatlarıından fərqləndiyini, seçildiyini bildirdi, korona pandemiyası zamanı əvəzsiz xidmətlərindən danışdı..

Sonda xatirə şəkil çəkildi.

**Yeni Balakən**

## XALQIN HÖRMƏTİNİ QAZANAN XİDMƏT ADAMI

# Maqamedov Hacı Seyfullah oğlu - sədaqətli əmək, nümunəvi insanlıq



Müxtəlif peşə sahələrində bəziləri işləri ilə, bəziləri isə şəxsiyyətləri ilə tanınır. Amma nadir hallarda bu iki xüsusiyyət bir insanda ahənglə birləşir. Balakənin tanınmış siması, görüşdüyü insanın üzündə təbəssüm yarada bilən, bir çoxumuzun ərkyana Hacı dayı deyə müraciət etdiyimiz, Maqamedov Hacı Seyfullah oğlu bu cür nadir nümunələrdəndir. O, 1961-ci il yanvarın 1-də (01.01.1961) anadan olub. Nizami adına şəhər 1 saylı tam orta məktəbi bitirib, 1980-ci ildə hərbi xidmətə yollanıb. Hərbi xidmətdən qayıtdıqdan sonra Kənd Təsərrüffatı Texnikumunda iqtisadçı ixtisası üzrə qiyabi təhsil alıb. Ailəli, iki övlad atası, iki də nəvə babasıdır.

1983-cü ildən Balakən rayon Hərbi Komissarlığında təlimatçı, baş təlimatçı, şöbə rəisinin köməkçisi, hal hazırda isə qeydiyyat şöbəsinin müfəttişi vəzifəsində çalışır. İşini, iş yerini, kollektivini, xalqa xidmət etməyi sevəndir. İş yerinin, binanın, invertarların təmiz saxlanılmasından tutmuş 1941-45-ci il müharibəsi iştirakçılarının vəsiqələrinin bərpası, sənədlərinin qaydaya salınması, Çernobıl, Əfqanıstan veteranlarının, 1992-ci il Qarabağ müharibəsi veteranlarının sənədlərinin bərpası, qaydaya salınması və bu kimi məsuliyyətli işlər Hacı müəllimin fəaliyyətində öz səliqə səhmanı, dəsti xətti ilə görünən və görülən işlərdəndir. Uzun illər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Balakən rayon şöbəsində xidmət edən Hacı müəllim peşəkarlığı, təvazökarlığı və səmimi münasibəti ilə həm kollektivin, həm də vətəndaşların dərin rəğbətini qazanıb.

Onun əmək fəaliyyəti sadəcə statistik göstəricilərlə ölçülməz. Bu, illərlə formalaşan insan münasibətləri, dərin etimad və yüksək etik davranışlarla dolu bir yolun hekayəsidir. İşə zamanında və məsuliyyətlə yanaşması, vətəndaş müraciətlərinə göstərdiyi diqqət və səbir, onu dövlət-məmur münasibətlərinin uğurlu nümunəsinə çevirib.

### Rəhbər və vətəndaşlar nə deyir?

**Şöbə rəisi:**

"Hacı müəllim kollektivimiz üçün təkcə təcrübəli əməkdaş deyil, həm də dayaqdır. Onun həm gənclərə yön verdiyi yanaşması, həm də prinsipial mövqeyi bütün iş prosesində özünü göstərir. Onunla çalışmaq özü bir məktəbdir."

**Qabaxçöllü vətəndaş:**

"Mən ilk dəfə müraciət edəndə tərəddüd içində idim. Amma Hacı müəllimin səmimiyyəti, diqqətlə dinləməsi və problemi qısa zamanda həll etməsi məni çox sevindirdi. Onun kimi məmurlar dövlətə və insanlara ümid bəxş edir."

**Gənc əməkdaş:**

"Hər gün ondan nəsə öyrənirik. Yalnız işgüzarlığı deyil, insanlara yanaşması, sakitliyi və mədəni davranışı bizi də dəyişdirir. O bizim üçün bir örnək, istiqamətdir."

Söhbətimizin sonunda Hacı müəllimdən onun haqqında "Yeni Balakən" qəzetində gedəcəyi yazı haqda fikrini soruşuram:

Alqışlayıram.Təqdirə layiqdir. Yazı sadəcə mənim barəmdə, şəxsim haqda olduğu üçün demirəm, ümumiyyətlə uzun müddət işləyən, xidməti, iş təcrübəsi olan, vətəndaş rəğbətini, xalq sevgisini qazanmış insanları tanıtmaq, onları unutmamaq üçün tarixin yaddaşına qeyd edərək saxlamaq, əbədiləşdirmək, uzun illərə dayalı iş və həyat təcrübəsindən istifadə etmələri, yeni, gənc nəsillərə, əməkdaşlara bir yol, cığır, örnək olaraq göstərmək, təbliğ etmək baxımından yerində və əvəzsizdir. "Yeni Balakən"in bu cürə yanaşması, diqqəti, səmimiyyəti üçün təşəkkür edirəm.

### Yol göstərən izlər..

Hacı müəllimin portreti yalnız zahiri nüfuz deyil, həm də onun xarakterinin bir güzgüsüdür: sakit, ciddi, dinləməyi bacaran və heç vaxt insanlarla münasibətdə etik çərçivələri pozmayan. Onun fəaliyyəti - həm rəsmi vəzifə, həm də insani missiyadır.

Gələcək nəsillər bu cür nümunələrlə yetişdikcə, cəmiyyət daha da güclənəcək. Onun həyatı və fəaliyyəti bir daha sübut edir ki, istedad, zəhmət və vicdan birləşəndə, ortaya unudulmaz izlər çıxır.

**Ramazan Abal**

# Bizim istedadlar

1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür. 1 İyun uşaq bayramından yazmayacağam,1 iyunda Balakənimin istedadlı uşaqlarından yazaraq onları tanıtmaq istəyirəm.

Səadət Çərçiyeva Nizami adına Balakən şəhər 1 saylı tam orta məktəbin 9-cu sinif şagirdidir,rus sektorunda oxuyur. Ölkəmizdə keçirilən müsabiqələr adətən azərbaycan dilində olur. Səadət bir çox müsabiqələrdə iştirak edib, iştirak etdiyi müsabiqələrin də qalibidir. Balakəni qürurla təmsil edərək yer tutmuş, rayona yüksək titulla,adla qayıtmışdır. Onun qatıldığı müsabiqələrdən biri,2007-ci ildən hər il 10 mayda Heydər Əliyevin anadan olması münasibətilə təşkil olunan 3 mərhələdən ibarət "Ən yaxşı təqdimat" müsabiqəsidir. Bu il ulu Öndərin anadan olmasının 102-ci illiyinə həsr olunmuş müsabibiqənin 1-ci mərhələsini Balakəndə, 2-cini Şəkidə və finalı Bakı şəhərində keçib, yer tutub qalibiyyətlə başa vuran Səadət Çərçiyeva və digər yer tutanların elə Bakı şəhərində Təhsil naziri, YAP sədrinin müavini və digər hörmətli qonaqların iştirakı ilə keçən möbətər tədbirdə təltif və təqdimatları oldu. Səadətin mükafatını və hədiyyəsini MÜTDA-nın rəhbəri Eşqi Bağırov təqdim etdi. Təhsil naziri Emin Əmrullayev,YAP sədrinin müavini Əli Əhmədov və digər hörmətli




qonaqlar əlini sıxaraq təbrik etdilər. Əlbəttə onlar da fərqində idilər, təhsilini rus dilində alan Səadət azərbaycan dilində belə mükəmməl təqdimat hazırlamışsa - bu sırf istedaddır...

"Ən yaxşı təqdimat" müsabiqəsi böyük tədbirdir və respublikanın tamamını əhatə edir. Bu istedadların yarışıdır və ordan qalibiyyətlə, diplomla, qiymətli hədiyyə ilə Balakənimə qayıdan Səadət Çərçiyevanı bütün Balakənlilər adından təbrik edir, rayonumuzun adını savadda, bilikdə, istedadda önə çıxardığı üçün təşəkkür edirik.

**Yeni Balakən**

# Daha bir istedadımız

Bu gün, 1 iyunda daha bir istedadımızı, Rauf Hədisov adına Yeni Şərif kənd tam orta məktəbinin 9-cu sinif şagirdi Xacay Əhmədiyevanı,daha doğrusu onun ilk yazısını təqdim edirəm. Xacayı biz Balakən rayonunda keçirilən tədbirlərdən, tədbirlərin bacarıqlı, qabiliyyətli iştirakçısı olaraq tanıyırıq. O, tədbirlərdə gözəl nitq söyləyir, şeirlər səsləndirir, qəşənq rəqs edir. Bundan əlavə sosial şəbəkə hesabındakı səhifəsində öz "istehsalı" olan qısa film-roliklərlə çıxış edir. Yəni ssenarini özü yazır, özü səhnələşdirir, bütün rolları özü oynayır, özü də telefonu ilə çəkir. Həm senarist, həm rejissor, həm aktyor həm də operatordu. Tək əlin beş barmağın hər barmağında bir mərifət..

Xacaydan birində soruşdum ki, gələcəkdə kim olmaq, hansı peşəyə yiyələnmək istərdin? - Jurnalist olmaq istərdim - dedi. Və gördüm ki, Xacay sözün, məntiqin, tərzin, kəlam elminin kökünə enmək istəyir. Doğma Balakənimdə belə düşünən bir istedadın varlığına sevindim və Xacayın bu sahədə ilk addımlarını atmasını, dünən Şərif kəndində açılan park barədə Qabaxçöl sakininin təəssuratını yazmasını, bu yazını da "Yeni Balakən" qəzetində Xacayın ilk yazısı olaraq vermək istədim. (hələ bu yazı ayaqüstü yazılıb)

**Ramazan Abal**



# Mənim parkım

Qabaqçölün Şərif kəndində yeni bir parkın açılışı kənd sakinləri üçün sevindirici bir hadisə oldu. Təzə salınmış bu park, kəndin abadlaşdırılması istiqamətində atılmış mühüm addımlardan biridir. Park müasir tələblərə cavab verən şəkildə dizayn olunub. Burada həm uşaqlar, həm də böyüklər üçün müxtəlif istirahət guşələri yaradılıb. Parkın ərazisində dekorativ ağaclar və gül kolları əkilib. Gecə vaxtı parkın işıqlandırılması xüsusi diqqətlə təşkil olunub. Park ərazisinə çəkilən asfalt yollar və oturacaqlar hər kəsin rahatlığı üçün nəzərdə tutulub. Park kəndin mərkəzinə yaxın yerdə yerləşdiyi üçün əlçatanlığı da yüksəkdir. Açılış mərasimində yerli sakinlərlə yanaşı, icra nümayəndələri də iştirak etdilər. Onlar parkın istifadəyə verilməsini kəndin sosial inkişafı baxımından müsbət dəyərləndirdilər. Sakinlər yeni parkın uşaqlar üçün təhlükəsiz və səmərəli istirahət yeri olduğunu bildirirlər. Park həm də kəndin ümumi görünüşünə gözəllik qatıb. Yaşıllıqlar arasında dincəlmək istəyən hər kəs üçün bu park əvəzsiz məkandır. Yeni park Şərif kəndinin simasını dəyişən, gələcəyə ümid verən bir layihə kimi qiymətləndirilir. Belə təşəbbüslərin davamlı olmasını arzu edirik və parkin salınmasında əsas rol oynayan Qabaxçölün, kəndin xaricdə yaşayan iş adamlarına, zəhməti olan hər kəsə bütün kənd sakinləri adından öz dərin təşəkkürümü bildirirəm!

**Xacay Əhmədiyeva**

# YOLUMUZ QARABAĞA

Bir çox kollektivlərlə, dəfələrlə Qarabağa səyahət etmişəm. Bu gün səfərini media olaraq müşayət etdiyim kollektiv, Balakən Uşaq İncəsənət Məktəbidir. Balakən UİM-in kollektivi gözəl kollektivdi və bu gözəllik məktəbin direktoru idarəetmədə müasir düşüncəli, klassik ruhlu, mərd, geniş anlayış sahibi, insan sevən Arifə Tağıyevanın rəhbərliyi sayəsindədir. Mən də qatılıram bu gözəl kollektivə, yolumuz Qarabağadır. Balakən UİM-nin Qarabağ səfəri Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı çərçivəsindədir.

Uzun illər işğalda olmuş, 10.11.2020-ci il tarixdə isə cəmi 44 günlük müharibəylə ərənlərimizin şücaəti, qəhrəmanlığı sayəsində azad olmuş Qarabağımızı görmək, gəzmək hər kəsin istəyi, arzudur. Qarabağ həm də musiqimizin, mədəniyyətimizin beşiyidir, bir çox dahi sənətkarlarımızın, ustadlarımızın məmləkətidir. İncəsənət, musiqi kollektivinin Qarabağı görmək ikiqat arzusudur.

Səhər saat 07:00-da Balakən UİM-in qarşısından bu arzunu reallığa çevirəcək səfərə, gerçəyə aparan yola düşürük. Günortaya yaxın Ağdama çatırıq. Ağdamın bir tərəfi erməni vandallığının ən son həddi yəni bu günün Xirosiması bir tərəfi isə dövlətimiz tərəfindən inşa edilməkdə olan dünyanın ən gözəl şəhəri olacaq Ağdam. Keçmişindəki bütün tarixi abidələr bərpa olunur, həmçinin Ağdam Cümə Məscidi. Səfərimizin ilk durağı Ağdam Cümə Məscididir.Məscidə daxil olub iki rəkəat namaz qıldıqdan sonra məscidin imamı, Ağdamın axundu Mehmanla söhbət edirik. Mehman savadlı,dostcanlı insandır. Bizə Ağdamın, məscidin, yaxınlıqdakı xaraba görünüşündə olan binaların tarixindən danışdı. Mehmanla söhbətimizin ən maraqlısı Ağdam Cümə Məscidinə dövlətimizin Başçısı İlham Əliyev tərəfindən gətirilib qoyulan o kiçicik daş(şəkildə var) parçasını barədə idi. Belə ki, Ağdam işğal altında olduğu zaman ATƏT-in Minsk qrupunun üzvlərindən biri Heydər Əliyevə görüşlərinin birində kiçik bir daş parçası verir və deyir ki: Bu daşı Ağdam Cümə Məscidindən götürmüşəm, sizə xatirə olaraq verirəm. Heydər Əliyev də daşı götürür və cavabında deyir ki: Bu daş aid olduğu yerə,yerinə qayıdacaq.Və elə də olur. 30 ildən sonra həmən daşı Heydər Əliyevin oğlu İlham Əliyev Ağdamı işğaldan azad edərək, orda bərpa etdiyi Ağdam Cümə Məscidində yerinə qoyur. Daş məsciddə şüşə vitrində xatirə olaraq saxlanılır.

Ağdamda ikinci durağımız Şəhidlər Xiyabanıdır. 1-ci Qarabağ müharibəsinin əfsanəvi batalyonu "Balakən Qartalları"nın komandiri Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun məzarını ziyarət edərək Şəhidlərimizin ruhundan fatihə oxuduq. Ağdamdan çıxırıq Əsgərana tərəf. Gəlib çatdıq Əsgəran qalasına. Tarixi qalada xatirə şəkillər çəkərək yolumuza davam edirik üzü Xocalıya. Xocalı adı hər nə qədər kürəsəlçilərin erməni-rus icrasında Türkə qarşı ən böyük soyqırımın ünvanı olaraq qalsada, Şərqi Zəngəzur bölgəsinin ən müasir inkişafına sahib rayonun adı kimi, özü də fərqlənəcək. Bu istiqamətdə böyük işlər görülür orda dövlətimiz tərəfindən. Xocalı kiçik bir rayondur, o başında "Xankəndi" tabelası görünür. Və Xankəndinə daxil oluruq. Elə girişdən başlayan mənzərəylə insanda o qədər hisslər, duyğular oyanır ki. Uzun illərin həsrəti, özləmi, yanında vüsalı. Vüqarı, qüruru. Qalib dövlətin qalib vətəndaşı olduğunun duyğusu orda bir ayrı cürə gəlir sənə, dolğun, olğun hiss edirsən. Ayağını Xankəndi torpağına basdığında şər üzərində qələbənin fəxarətini yaşayırsan.



Xankəndində otelimizə yerləşdikdən sonra gec də olsa naharımızı edib biraz dincəlirik. Xankəndinə dəfələrlə səfər etsəm də heç vaxt gecə qalmamışdım. Xankəndinin gecələri bir başqa olurmuş. Gec nahar etdiyimizdən,biraz da dincəldikdən sonra şəhər gəzintimiz axşam çağına təsadüf edir. Otellər, restoranlarla dolu Xankəndində ən müasir tikinti, quruculuq, bərpa işləri gedir. Xankəndinin hal hazırkı görüntüsü işçilər, sahibkarlar, tələbələr və turistlərdir. Böyük marketlər şəbəkələri Xankəndini də sarmış, hər küçədə bir şəbəkə marketinə rast gəlinir. Bir çox görməli, gəzməli yerləri dolaşdıqdan sonra yoruluruq. Şəhərin mərkəzində böyük samovarın qaynadığı bir çay ocağında yorğunluğumuzu çıxartmaq, samovar çayı içmək üçün əyləşirik. Gözəl samovar çayını qurtumlaya-qurtumlaya şəhərin mənzərəsindən həzz alır, şirin söhbət edirik. Necə deyərlər çaylar bahənə, söhbət şahanə.

Gecə düşür. Xankəndinin bir yay gecəsində otelimizə doğru addımlayırıq. Bu gecənin sabahı, Qarabağın tacı Şuşaya qalxacağıq. Sakit, sərin gecəli, təmiz və quru havası olan Xankəndində şirin, rahat yuxu yatırıq. Səhər tezdən başlayan inşaat işlərinin, texnikanın səsinə oyanırıq. Buralarda hələ xoruz banlamır. Səhər yeməyimizi yedikdən sonra Xankəndində dünən çata bilmədiyimiz bir yer qalmışdı: Qarabağ Universiteti.

Bu Universitet Qarabağdakı siyasi qələbəmizin təzahürüdür.İstədiyin yeri hərb gücüylə ala bilərsən, bu hərbi qələbədir. Orada məskunlaşdığın zaman isə bu siyasi qələbədir. "Qarabağ Universiteti" Xankəndində məskunlaşma yaradacaq. Universitetin həyətinə daxil oluruq, xatirə şəkillər çəkirik. Mühafizəyə təşəkkür edirik. Onların müşayəti ilə Universitetin içərisi ilə tanış oluruq, yaradılmış şəraiti əyani görürük. Universitet daha da böyüyür. Bu il 1400 tələbə ilə ilk dərs ilini başa vuran təhsil ocağına gələn il daha çox tələbə gələcək. Universitetin yanında əlavə korpusların tikilməkdə olduğunu da gördük.

Burdan ayrılıb gedirik Şuşaya. Şuşaya qalxdıqca aşağıda biraz əvvəl ayrıldığımız Xankəndi görünür, sanki ovcumuzun içindəymiş kimi.

Şuşaya daxil oluruq. İlk dayanacağımız şəhərin girişindəki Şuşa qalasıdır. Səfər iştirakçıları Şuşa qalası ilə tanış olub burda da xatirə şəkillər çəkdirdikdən sonra şəhərə daxil oluruq."8 Noyabr" küçəsində Şuşa şəhəri Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi binasının qarşısında qoyulmuş, cənab Prezidentin səyi nəticəsində ölkəyə qaytarılmış üzərində erməni düşmənçiliyinin, vəhşiliyinin izləri olan Xurşidbanu Natəvanın, Bülbülün, Üzeyir Hacıbəyovun ermənilər tərəfindən güllələnmiş büstlərinin olduğu parkı ziyarət edirik. Yaxınlıqda yerləşən Yuxarı və Aşağı Gövhər Ağa məscidlərinə baş çəkirik. İncəsənət məktəbinin müəllimi, Nəbi müəllimin sevinci yerə göyə sığmır, "Aşağı Gövhər Ağa" məscidinin yanında 15 yaşındaykən, 40 il əvvəl gəldiyi sanotoriyanı görür (təbii ki, xarabalıqlarını), xatirələri canlanır gözündə. Xəyalı onu 40 il geriyə aparır və bizə xatırladıqlarını, yerlərini əli ilə göstərərək danışır.

Yuxarı Gövhər ağa məscidinin arxasından dolaşaraq M.P.Vaqifin məqbərəsinə, ordan 30 metr yuxarı Cıdır düzünə qalxırıq. Cıdır düzündə ad günü bu günə təsədüf edən, Balakən UİM-nin bu ilki məzunu Diana balamızı məktəbin direktoru, dərin düşüncəyə malik Arifə müəllimə hədiyyə ilə təbrik etdi. Təbii ki, Diana da Cıdır düzündə qeyd olunan bu doğum gününü unutmayacaq. İlk olaraq hərbi, sonra isə bir çox siyasi,mədəni tədbirlərin məkanı olan Cıdır düzü səfər iştirakçılarının ən yadda qalan xatirələrindən olacaq. Səfərin son dayanacağı İsa bulağıdır. Şuşadan Laçın yoluna, ordan da İsa bulağına enirik. İsa bulağının sərin suyu, oranın sakit, yaşıl təbiəti, dadlı hazırlanmış, ləziz nahar yeməyi - hələlik, bu qədər - deyərək həm səfərimizə, həm də yazımıza bir fasilədir.

İnşallah, gələn görüşlərdə görüşmək diləyilə.

**Ramazan Abal**

# Azərbaycan Respublikasının iqlim dəyişiklikliyi ilə mübarizə sahəsində siyasəti

Son onilliklərdə dünyada müşahidə olunan iqlim dəyişiklikləri qlobal səviyyədə ciddi sosial, iqtisadi və ekoloji nəticələr doğurmuşdur. Atmosferdə istixana qazlarının artması, orta illik temperaturun yüksəlməsi, təbii fəlakətlərin intensivləşməsi və su ehtiyatlarının azalması kimi məsələlər bunlara nümunədir. Qlobal iqlim böhranı təkcə ekoloji sistemlərə deyil, həm də insan hüquqları, iqtisadi inkişaf və dövlət siyasətlərinə ciddi təsir göstərməkdədir. Bu kontekstdə dövlətlərin beynəlxalq öhdəlikləri ilə yanaşı, milli hüquqi mexanizmlərin formalaşdırılması və icrası da xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası da qlobal iqlim dəyişikliklərinin təsirinə məruz qalan ölkələrdən biri olmaqla, bu sahədə müxtəlif beynəlxalq konvensiyalara qoşulmuş və iqlim dəyişikliyi ilə mübarizə siyasətini hüquqi əsaslarla möhkəmləndirməyə çalışmışdır. Ətraf mühitin mühafizəsi, davamlı inkişafın təmin edilməsi və iqlim dəyişikliklərinə qarşı adaptasiya mexanizmlərinin gücləndirilməsi dövlətin əsas prioritetlərindən birinə çevrilmişdir.

Tədqiqatlar göstərmişdir ki, son bir əsrdə Azərbaycan Respublikasının ərazisində orta illik temperatur göstəricilərində 0,4-1,3°C aralığında yüksəlmə qeydə alınmışdır. Bu artım ölkənin iqlim baxımından daha həssas hala gəlməsinə səbəb olmuşdur. Nəticədə, daşqınlar, quraqlıqlar, güclü küləklər, torpaq eroziyası və su ehtiyatlarının azalması kimi ekstremal hava hadisələri müşahidə olunur. Bu dəyişikliklər insan sağlamlığına, ərzaq və su təhlükəsizliyinə mənfi təsir göstərir, yoxsulluğu və xəstəlikləri artırır, məcburi miqrasiyanı gücləndirir. Ümumdünya Səhiyyə Təşkilatı bu prosesi XXI əsrdə bəşəriyyət üçün ən böyük sağlamlıq riski kimi qiymətləndirir. Mütəxəssislər isə bu təsirlərin bir qisminin uzunmüddətli və davamlı olacağını bildirirlər.

Azərbaycan Respublikası iqlim dəyişikliklərinin fəsadlarının azaldılması və ətraf mühitin qorunması məqsədilə bu sahədə normativ-hüquqi bazanın formalaşdırılmasına xüsusi önəm vermişdir. Dövlətin ekoloji siyasətinin hüquqi əsasını təşkil edən bir sıra qanunlar, strategiyalar və digər normativ aktlar iqlim dəyişikliklərinə qarşı mübarizə istiqamətində mühüm çərçivə yaradır. Bu hüquqi aktlar həm milli, həm də beynəlxalq öhdəliklərin yerinə yetirilməsinə xidmət edir.

Məlumdur ki, Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Bu kontekstdə, Azərbaycan Respublikasının iqlim dəyişiklikləri ilə mübarizə sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələr xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan Respublikası ətraf mühitin qorunması və iqlim dəyişikliyinin fəsadlarının azaldılması məqsədilə bir sıra beynəlxalq sənədlərə qoşulmuşdur. Bu müqavilələrə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası, Kioto Protokolu və Paris Sazişini nümunə göstərmək olar.

Azərbaycan Respublikası 1995-ci ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasını (UNFCCC) ratifikasiya etmişdir. Kioto Protokolu isə 1997-ci il dekabrın 11-də Yaponiyanın Kioto şəhərində qəbul olunmuş və 2005-ci il fevralın 16-da qüvvəyə minmişdir. Azərbaycan Respublikası Milli Məclisinin 18 iyul 2000-ci il tarixli qərarı ilə ölkəmiz də bu Protokola qoşulmuşdur. Azərbaycan Respublikası istilik effekti yaradan qaz tullantılarının kadastrının qeydiyyatı, o cümlədən milli məlumatların hazırlanması kimi vəzifələri yerinə yetirir. Dövlətimiz 2016-cı ildə Paris Sazişini ratifikasiya edərək, karbon qazlarının tullatınlarının azaldılması və aşağı karbonlu iqtisadiyyata keçid məqsədilə Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) sənədindəki öhdəliklərini icra etməyə başlamışdır. Azərbaycanın əsas məqsədi 1990-cı il səviyyəsi ilə müqayisədə 2030-cu ilə qədər istixana qazı emissiyalarını 35% azaltmaqdır. Bu, ölkənin iqlim dəyişikliyinə qarşı öz töhfəsidir.

İqlim dəyişikliyi ilə mübarizə siyasəti kifayət qədər mürəkkəb siyasətdir. Bu siyasət özündə ən vacib şərt kimi beynəlxalq əməkdaşlığı nəzərdə tutur. Çünki bu yalnız bir dövlətin deyil, bütün dünya dövlətlərinin qarşılaşdığı ciddi ekoloji problemdir və bu problemin həlli beynəlxalq əməkdaşlığa əsaslanır. Təsadüfi deyildir ki, ölkəmiz qeyd olunan problemin həlli istiqamətində öz beynəlxalq səylərini daim davam etdirməkdədir. Birincisi, yuxarıda adları qeyd olunan beynəlxalq sənədlərin qəbulu bu prosesə dövlətin nə qədər önəm verdiyini bariz şəkildə əks etdirir.

Digər tərəfdən, ölkəmiz iqlim dəyişikliyi ilə mübarizə sahəsində Tərəflər Konfransının (COP29) həyata keçirilməsinə də ev sahibliyi etmişdir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2021-ci il 2 fevral tarixində imzalanmış 2469 saylı Sərəncamla təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində beş əsas prioritetdən biri də "Təmiz ətraf mühit və yaşıl inkişaf ölkəsi" kimi müəyyən edilmişdir. Bundan əlavə, qlobal səviyyədə iqlim mübarizəsinin gücləndirilməsi məqsədilə 25 dekabr 2023-cü il tarixində verilmiş Sərəncamla 2024-cü il Azərbaycanda "Yaşıl dünya uğrunda həmrəylik ili" elan edilmişdir.

Ardı 4-cü səhifədə

# SON ZƏNG



Bu gün ölkəmizin bütün ümumtəhsil məktəblərində son zəng çalınır. Məktəbi bitirən məzunlar yeni, müstəqil həyata qədəm qoyurlar. Kimisi təhsilini ali məktəblərdə davam etdirəcək, kimisi hərbi xidmətə yollanacaq.

Balakən rayonunun 46 məktəbində də bugün son zəng çalındı. Rayon üzrə təhsil alan 12647 şagirddən 1087-si 9-cu, 713-ü isə 11-ci sinifi bitirdilər.

İştirak etdiyim son zəng tədbirlərindən,Nizami adına şəhər 1 saylı tam orta məktəbin məzunlarının hazırlağı çıxışlar izlənməyə dəyərdi. Xüsusilə iki çıxış, biri 11-cilərin bayraqlarıyla hazırladığı Türk Dövlətləri Birliyinə, digəri 8b rus sinfinin vətənpərvərlik mövzusunda, istənilən şəraitdə mütləq qalibiyyəti, qələbəni əldə edərək Azərbaycan bayrağını zirvədə dalğalanmasımı göstərən çıxışları, onların toxunduğu mövzu məndə çox xoş təəssürat yaratdı və əmin oldum ki, belə məzunlar buraxan məktəb, onları yetişdirən o dəyərli müəllimlər olduqca, Nizami məktəbi bu ənənəsini, rayon təhsilindəki öncülüyünü qoruduqca Balakənimin gələcəyi etibarlı əllərdədir.

Nəsimi adına şəhər 2 saylı tam orta məktəbin məzunlarının rəngarəng çıxışları da maraqlı idi.Məktəb illərinə əlvida deyirdilər. Doluxsunmuş gözlərlə son kərə seyr edirdilər 11 illik şagird ömrünü yaşadıqları məktəbi,onlara dərs keçən müəllimləri.

Balakənimin və ölkəmizin bütün məzunlarına uğurlar diləyirik. Yeni, müstəqil həyata qədəmləri mübarək olsun.

**Yeni Balakən**

# Qurban Bayramı: Xeyirxahlıq və İnsansevərlik Nümunəsi

Hər il olduğu kimi, bu il də Qurban Bayramı paylaşma və mərhəmət ruhu ilə qarşılandı. Bayramın əsas mahiyyəti - ehtiyacı olanlara yardım etmək və birliyin gücünü hiss etdirməkdir.

Hörmətli millət vəkilimiz Nəsib müəllim yalnız bayram günlərində deyil, il boyu xeyirxah əməlləri ilə cəmiyyətə böyük töhfələr verir. Ramazan ayı boyunca təşkil etdiyi iftar süfrələri yüzlərlə insanı bir araya gətirir, birlik və paylaşma ruhunu daha da gücləndirir. O, ehtiyacı olan ailələr üçün ev tikir, kasıb tələbələrin təhsil haqqını ödəyərək onların gələcək uğurlarına dəstək olur.

Bundan əlavə, sağlamlıq problemi yaşayan insanlara yardım əlini uzatmaqla onların müalicə və əməliyyat xərclərini qarşılayır. Onun bu əməlləri cəmiyyətimizdə yardımlaşma və humanizmin dərin köklərə malik olduğunu göstərir.

Qurban Bayramı təkcə dini bayram deyil, həm də insani dəyərlərin ən ali təcəssümüdür. Hörmətli Nəsib müəllimin davamlı xeyirxah əməlləri isə bu dəyərləri yalnız bir gün deyil, hər zaman yaşadır. Hər verilən dəstək, hər uzanan yardım əli, bizə birlik və həmrəylik ruhunu daha dərin hiss etdirir.



Nəsib müəllim bu il də ənənəsinə sadiq qalaraq şəhid ailələrinə, qazilərə və imkansızlara qurban payladı. Onun bu xeyirxah addımı yüzlərlə ailəyə sevinc bəxş etdi, Bayramın ruhunu daha da qüvvətləndirdi.Şəhidlərimizin əziz xatirəsinə ehtiram göstərmək, qazilərimizin fədakarlığını qiymətləndirmək və ehtiyacı olan insanlara yardım etmək - bizə həmrəylik və birlik hissini yaşadır.

Bu gözəl bayram münasibətilə bir daha hər kəsi paylaşmağa, xeyirxah işlər görməyə təşviq edirik.Hər paylaşılan nemət, hər uzanan yardım əli cəmiyyətimizi daha da gücləndirir, bizə birlik və həmrəylik ruhunu daha dərin yaşamağa kömək edir. Çünki birlikdə daha güclüyük!

**Ramazan Abal**

# Balakən Dövlət Peşə Təhsili Mərkəzi PHŞ-də "Açıq qapı" günü



11 İyun 2025-ci il tarixində Balakən Dövlət Peşə Təhsili Mərkəzi PHŞ-də "Açıq qapı" günü tədbiri keçirildi. Tədbirdə rayonun müxtəlif dövlət qurumlarının nümayəndələri, valideynlər, ictimaiyyət nümayəndələri , əməkdaşlıq etdiyimiz müəssisələrin təmsilçiləri və digər qonaqlar iştirak etdilər.

Tədbir iştirakçıları əvvəlcə ayrı-ayrı peşələr üzrə təhsil alan tələbələrin əl işlərindən ibarət sərgilərlə tanış oldular.

Tədbirin rəsmi hissəsi Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Mərkəzin direktoru Azad Dibirov çıxış edərək, təhsil ocağının fəaliyyət istiqamətləri və əldə olunan uğurlar barədə məlumat verib. Qeyd olunub ki, Balakən Dövlət Peşə Təhsili Mərkəzi PHŞ yeni yaradılmış təhsil müəssisəsidir və fəaliyyəti Balakən şəhərində yerləşən 1 nömrəli və 2 nömrəli Peşə Məktəblərinin bazasında təşkil olunmuşdur. Diqqətə çatdırılıb ki, Mərkəzin əsas məqsədi rayonda əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların hazırlanması prosesinə dəstək verməkdir. Təhsil müəssisəsində əsasən turizm, kənd təsərrüfatı, sənaye və digər sahələr üzrə peşə ixtisaslarının tədrisi həyata keçirilir.

Mərkəzimizdə Kompüter sistem inzibatçısı, Turizm sahəsində iaşə üzrə mürtəxəssis, Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, Aşpaz, Dərzi, Dayə, Aqroservis mütəxəssisi, Tərəvəz (dual) və digər ixtisaslar üzrə, ümumilikdə, 6 istiqamət üzrə 21 qrupda 350 tələbə təhsil alır, onlardan 264 nəfəri bu il məzun olacaq. Gələcəkdə Mərkəzdə 3 illik təhsil müddətinə malik qrupların yaradılması və yüksək texniki peşə təhsili pilləsi üzrə mütəxəssis hazırlığının həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda, dual təhsil proqramının əhatə dairəsinin daha da genişləndirilməsi planlaşdırılır.

Balakən Rayon İcra Hakimiyyəti başçısının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nəzakət Rüstəmova ölkəmizdə təhsil sahəsinə göstərilən yüksək dövlət qayğısından danışıb, peşə təhsilinin zəruriliyi, düzgün peşə seçiminin əhəmiyyəti və peşə təhsilinin perspektivlərindən söz açıb, kollektivə uğurlar arzulayıb.Tədbirdə qonaq qismində qonşu rayonlardan Zaqatala və Qax Dövlət Peşə Təhsili Mərkəzi PHŞ-in nümayəndələri də iştirak etdilər.

Tədbir bədii proqramla davam etdi.

Qeyd edək ki, tədbirin əsas məqsədi Balakən Dövlət Peşə Təhsili Mərkəzi PHŞ-in fəaliyyət istiqamətləri, təlim-tərbiyə imkanları və tələbələrin əldə etdikləri praktiki bacarıqlar barədə ictimaiyyəti məlumatlandırmaq, eləcə də gənclərdə peşə təhsilinə marağı artırmaqdır.Həmçinin Mərkəzin fəaliyyəti, təhsil imkanları, maddi-texniki baza, ixtisaslar və tələbələrin qazandığı bilik və bacarıqları geniş ictimaiyyətə təqdim etmək, eyni zamanda açıq və şəffaf ünsiyyət mühitində fikir mübadiləsi aparmaq idi.

**Yeni Balakən**




# Şəhid Sərxan Köklərovun cənnətdə keçən 38-ci doğum günü

**Sentyabrın 19-20-də keçirilmiş birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoydu və özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bu gün 2023-cü ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağda keçirilən 1 günlük antiterror əməliyyatında şəhid olmuş Balakənin sonuncu şəhidi Köklərov Sərxan Eyvaz oğlunun doğum günüdür. Bu münasibətlə rayonun Şəhidlər Xiyabanında tədbir keçirildi. Tədbirdə şəhid ailələri, qazilər, RİH nümayəndələri,din xadimləri, qonşu Zaqatala, Şəkidən gələn şəhid anaları, Tülü və Nəsimi məktəbinin müəllim, şagirdləri, QHT nümayəndələri və digər qonaqlar iştirak etdilər. Dövlət himni,ardından şəhidlərin anısına bir dəqiqəlik sükutla başlayan tədbirdə qonaqlar çıxış etdi, məktəblilər qəhrəman şəhidimiz Köklərov Sərxana həsr olunmuş şeirlər səsləndirdil ər. 38-ci doğum gününü cənnətdə qeyd edən şəhidimizin qəhrəmanlığından, igidliyindən, döyüş yolundan danışıldı. Şəhidin qardaşı Absəläddin Köklərov tədbirə gələnlərə Köklərovlar ailəsi adından təşəkkür etdi. Sonda din xadimi Rövşən İbrahimov şəhidin ruhundan Qurani Kərimdən ayətlər oxudu, dualar etdi. Bütün dualara - Amin - deyirik.

Tədbirin ikinci dini, mövlüd mərasimi şəhidin evində davam etdi.

**Yeni Balakən**

# Azərbaycan Respublikasının iqlim dəyişiklikliyi ilə mübarizə sahəsində siyasəti

Əvvəli 3-cü səhifədə

Buna müvafiq olaraq 2024-cü ilin 11-24 noyabr tarixləri arasında Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etmişdir. Konfransda dünyanın müxtəlif dövlətlərindən nümayəndələr iştirak edirdi. COP29 Bakı konfransı Azərbaycanın liderliyi altında qlobal iqlim dəyişikliyi ilə mübarizədə mühüm uğurlar əldə edilən, maliyyə dəstəyi və çoxtərəfli əməkdaşlıq sahəsində dönüş nöqtəsi oldu. Bakı Maliyyə Məqsədi, Paris Sazişinin 6-cı maddəsinin tam işlək vəziyyətə gətirilməsi, İtki və Zərər Fondunun institutlaşdırılması və adaptasiya üzrə yeni yol xəritəsinin yaradılması kimi qərarlar qlobal iqlim fəaliyyətində əsaslı irəliləyişlər təmin etdi və gələcək COP-lar üçün müsbət presedent yaratdı.

İqlim dəyişikliyi ilə mübarizə sahəsində Azərbaycan Respublikasının digər orqanları kimi prokurorluq orqanlarının rolu da xüsusilə qeyd edilməlidir. Azərbaycan Respublikasının Baş Prokuroru cənab Kamran Əliyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Mavi Zonada keçirilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı sessiyada qeyd etmişdir ki, "bu tədbir iqlim fəaliyyətinə dair mühüm məsələləri müzakirə etmək və biomüxtəlifliyin qorunması, ekoloji cinayətlərə qarşı mübarizə, karbon emissiyalarının azaldılması üçün hüquq-mühafizə orqanlarının səylərini gücləndirmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsləri ölkənin yaşıl enerji təşəbbüslərinə və ətraf mühitin mühafizəsinə bağlılığını nümayiş etdirir. COP29-a ev sahibliyi etməyimiz beynəlxalq ictimaiyyətin bu sahədəki səylərimizi tanımasının göstəricisidir". Qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyev müxtəlif tədbirlərdə və konfranslarda Azərbaycan Respublikasının COP29 kimi əhəmiyyətli konfransa ev sahibliyi etməsinin, o cümlədən bu konfransın özünün istiqamətlərinin əhəmiyyətindən danışmışdır.

Qeyd etmək lazımdır ki, prokurorluq orqanları ətraf mühitin mühafizəsi sahəsində uzun illər ərzində davamlı və sistemli şəkildə fəaliyyət göstərərək bu sahədə hüquqi nəzarətin gücləndirilməsi, ekoloji cinayətlərin qarşısının alınması və təbii resursların qorunması istiqamətində mühüm rol oynamışdır. Azərbaycan Respublikasının prokurorluq orqanları həmçinin ətraf mühitin qorunması ilə bağlı qanunvericiliyin tətbiqinə ciddi diqqət ayıraraq, ekoloji təhlükəsizliyin və davamlı inkişafın təmin olunması üçün fəal tədbirlər həyata keçirirlər. Qeyd olunan tədbirlər içərisində ağacəkmə aksiyaları xüsusilə qeyd edilməlidir.Balakəndə belə aksiyaların təşkilində,həyata keçməsində rayon prokuroru Camal Firudin oğlu Bağırovun rəhbərliyində prokurorluq əməkdaşları da fəal iştirak edirlər. Bu fəaliyyətlər prokurorluğun ekoloji məsələlərə verdiyi önəmin və vətəndaşların sağlam yaşayış mühitinə olan məsuliyyətinin göstəricisidir.

Beləliklə, qeyd edilməlidir ki, COP29 konfransı qlobal iqlim məsələlərində yeni mərhələ yaradaraq çoxşaxəli əməkdaşlıq və hüquqi nəzarətin gücləndirilməsini təmin etdi. Azərbaycan prokurorluq orqanları da ətraf mühitin qorunmasında mühüm rol oynayaraq, bu prosesə öz töhfələrini verməyə davam edir.

**Samirə Kazımlı**
**Balakən rayon prokurorluğunun müstəntiqi**

# 2025-ci ilin məhsulu üçün Balakən rayonunda kənd təsərrüfatı bitkilərinin əkini

2024-cü ilin payız və 2025-ci ilin yaz fəsli əkin, səpin işlərinin aparılması üçün əlverişli keçdiyindən, rayonda kənd təsərrüfatı bitkilərinin vaxtında əkilməsi üçün münbit şərait yaranmışdır.

Belə ki, 2025-ci ilin məhsulu üçün rayonda 14096,5 hektar sahədə yazlıq və payızlıq bitkiləri mövcud olmuş və onun 1431,6 hektarını və ya 10,2 faizini payızlıq əkinlər, 12664,9 hektarını və ya 89,8 faizini isə yazlıq əkinlər təşkil etmişdir.

Rayonda mövcud payızlıq əkinlərin 573,2 hektarını və ya 40,0 faizini dən üçün buğda, 838,4 hektarını və ya 58,6 faizini dən üçün arpa və 20,0 hektarını və ya 1,4 faizini birillik yem bitkiləri təşkil etmişdir.

2025-ci ilin məhsulu üçün 12664,9 hektar sahədə yazlıq əkinlər mövcud olmuşdur ki, ondan 10279,9 hektarını cari ilin yazlıq əkinləri, 2385,0 hektarını isə keçmiş illərin çoxillik otları təşkil etmişdir.

Cari ilin yazlıq əkinlərinin 8121,4 hektarını 79,0 faizini dənli və dənli paxlalılar, 43,5 hektarını və ya 0,4 faizini texniki bitki olan tütün, 287,0 hektarını və ya 2,8 faizini kartof, 664,0 hektarını və ya 6,5 faizini tərəvəz bitkiləri, 155,0 hektarını və ya 1,5 faizini bostan bitkiləri, 1009,0 hektarını və ya 9,8 faizini isə yem bitkiləri təşkil edir.

Dən üçün qarğıdalının sahəsi əvvəlki illə müqayisədə 995,7 hektar və ya 14,3 faiz artaraq cari ildə rayon üzrə 7938,4 hektara çatmışdır.

Cari ildə rayonda payızlıqlar daxil olmaqla 3414,0 hektar sahədə yem bitkiləri mövcud olmuşdur ki, bu da əvvəlki ilə nisbətən 551,0 hektar və ya 19,2 faiz çoxdur.

**Əsəbəli Alqayev**
**Balakən Rayon Statistika İdarəsinin rəis müavini**

# MED X DENT Klinikası: Balakənin Yeni Diş-Damaq Sağlamlıq Ünvanı



Balakən şəhəri bu gün mühüm bir hadisəyə şahidlik etdi - müasir diş klinikası MED X DENT rəsmi olaraq fəaliyyətə başladı. Bu yeni tibb müəssisəsi, bölgə sakinlərinə yüksək keyfiyyətli stomatoloji xidmətlər təqdim edərək, diş sağlamlığı sahəsində yeni bir dövr açacaq.

**Açılış Mərasimi: Təntənəli Başlanğıc**

Açılış tədbirində yerli və mərkəzi mətbuat nümayəndələri, tibb mütəxəssisləri,həkimlər, klinikanın rəhbərliyi və digər qonaqlar iştirak etdi. Klinikada tətbiq olunan müasir texnologiyalar, innovativ müalicə üsulları və pasiyent rahatlığını təmin edən şərait tədbir iştirakçılarının diqqətini çəkdi.

Klinikanın təsisçisi, baş həkimi dok. Xəqani Məmmədov çıxışı zamanı MED X DENT-in əsas məqsədinin "pasiyentlərə sağlam, gözəl və rahat təbəssüm qazandırmaq" olduğunu vurğuladı. O, ən son tibbi avadanlıqlardan və peşəkar mütəxəssis komandasının xidmətlərindən bəhs edərək, pasiyent məmnuniyyətinin ön planda olduğunu bildirdi.

**MED X DENT: Yüksək Keyfiyyət və Müasir Standartlar**

Bu yeni tibb müəssisəsi aşağıdakı üstünlükləri ilə seçilir:

- Son texnologiyaya əsaslanan müayinə və müalicə metodları
- Təcrübəli həkim heyəti
- Pasiyentlər üçün komfortlu mühit
- Əlçatan və yüksək keyfiyyətli xidmətlər

Balakən sakinləri üçün MED X DENT, sadəcə bir diş klinikası deyil, həm də sağlam və parlaq təbəssümün ünvanıdır!

**Ramazan Abal**

# Balakən şəhəri M.F.Axundov küçəsinin sakinlərinin görülən işlər kimi yarımçıq qalan "sevinci"



Bir neçə il əvvəl Axundov küçəsinin sakinləri küçələrinin asfalt örtüyünün xarab olmasından,çala-çuxurların çoxluğundan, gecə işıqlanmasının yoxluğundan şikayətlənmişdilər. Mətbuat olaraq bu məsələni işıqlandırmışdıq. Sonra məsələyə baxıldı,küçə öncə qazılaraq su xətləri yeniləndi. Yenilənən su xətlərinin üzəri bir xeyli müddət örtülməsə də sonradan örtülərək küçənin tamamı asfaltlandı. Çox da qəşənq görünür, indi də. Sakinlər sevindilər hətta mətbuat vasitəsilə əməyi keçənlərə təşəkkür də etdilər. Və gözlədilər gecə işıqlanmasına başlanılsın, tamamlansın, gecələri də "ağ günə" çıxsınlar. Gecə işıqlanmasının quraşdırılması başladı küçənin o başından, H.Əliyev prospekti tərəfdən. Ta gəldilər, Axundov küçəsinin C.Məmmədquluzadə küçəsiylə kəsişməsində sanki qarşılarından "qara pişik" keçdi. O gün, bu gündü, aradan ildən çox vaxt keçir iş dayanıb. Küçənin 40%-i gecə işıqlanması ilə təmin olub şəhərsayağı, qalan 60%-i,küçənin sonuna, S.Vurğun küçəsinə qədər ərazidə yaşayan sakinlər qalıb gecənin əsarətində. Küçənin qalanının sakinləri deyir ki: - Bəs biz adam deyilik?..

Küçəmizin qalanı nə vaxt aydınlanacaq?

**Yeni Balakən**

# Balakəndə "Balaca dünyaların böyük bayramı"

Bu gün Balakən rayon Mədəniyyət Mərkəzi, Təhsil Sektoru və Uşaq kitabxana filialının birgə təşkilatçılığı ilə 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Balaca dünyaların böyük bayramı" adlı bayram şənliyi təşkil olunub.

Tədbir çərçivəsində Uşaq kitabxanası tərəfindən maraqlı kitab sərgisi təqdim olunub, Mədəniyyət Mərkəzinin könüllüləri müxtəlif personajlar obrazında uşaqlarla əyləncəli oyunlar keçiriblər, Təhsil Sektorunun hazırladığı musiqili nömrələr isə tədbirə xüsusi rəng qatıb.

Uşaqların sevinci, rəngarəng çıxışlar və səmimi ab-hava tədbiri unudulmaz bayrama çevirib.

**Yeni Balakən**



# "Külə dönmüş arzular"



Balakən rayon Hədisov adına Yeni Şərif kənd tam orta məktəbinin akt zalında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Balakən rayon Komissiyasının təşkilatçılığı ilə 26 İyun - "Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü" ilə əlaqədar tədbir keçirildi. Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyəti başçısının birinci müavini, Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Balakən rayon komissiyasının sədri Turan Dibirov narkomaniyanın insanların həyat və sağlamlığına, mənəvi-əxlaqi dəyərlərə və sosial-iqtisadi inkişafa mənfi təsirləri barədə ətraflı məlumat verərək, narkomaniyanın və onun törədə biləcəyi fəsadların qarşısının alınmasında gənclərin üzərinə düşən ictimai vəzifələr barədə tədbir iştirakçılarını məlumatlandırmışdır.

Tədbirdə iştirak edən Vətən Müharibəsi Qəhrəmanı Fərid Əliyev, rayon prokurorunun köməkçisi Qabil Əlizadə, Qabaqçöl polis bölməsinin rəisi, polis polkovnik leytenantı Vilayət Allahverdiyev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Balakən rayon şöbəsinin zabiti Niyazi Şirinov, Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin Balakən rayonu üzrə sektor müdiri Rasim Paçalov mövzu ətrafında çıxış etmiş, narkomanlığa qarşı mübarizənin hər bir vətəndaşın bilavasitə vəzifəsi olduğunu vurğulamışlar.

Daha sonra tədbir iştirakçılarına rayon Mədəniyyət Mərkəzi tərəfindən təqdim olunan "Külə dönmüş arzular" tamaşası təqdim olundu. Tamaşa izləyicilər tərəfindən maraqla qarşılanıb.

Tədbirin sonunda "Külə dönmüş arzular" tamaşasının iştirakçılarına "Təşəkkürnamə" və hədiyyələr təqdim olundu,xatirə şəkillər çəkildi.

**Yeni Balakən**

MƏSUL REDAKTOR:
Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b
www.yeni balaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100